# Peşə bayramını yüksək göstəricilərlə



Ümummilli liderimiz Heydər Əliyev zəkasının şah əsəri olan müasir, müstəqil Azərbaycan bu gün dünyanın sayılıb-seçilən dövlətlərindən biri, harada yaşamasından asılı olmayaraq bütün dünya azərbaycanlılarının qürur, iftixar mənbəyidir. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra bütün sahələr kimi, rabitə sahəsinə də xüsusi diqqət və qayğı göstərildi. “Müstəqil dövlətin müstəqil rabitəsi olmalıdır”, - deyən Heydər Əliyevin rəhbərliyi ilə rabitə sahəsində yüksək nailiyyətlərin əldə olunması üçün bir sıra qərarlar imzalandı, Dövlət Proqramı hazırlandı. Bu gün təməli həmin dövrdə qoyulmuş inkişafın saxlanılması və daha yüksək texnologiyalara sahib olmağımız üçün dahi Heydər Əliyevin siyasi varisi, xalqımızın sevimlisi və hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyev də bu sahəyə xüsusi diqqət göstərir. Əldə olunan nəticə isə həm bizim, həm də dünyanın gözü qarşısındadır. Cənab Prezident çıxışlarında rabitə sahəsinin ən yüksək templə inkişafda olduğunu vurğulamışdır. Ölkədə rabitə siyasətinin uğurla həyata keçirilməsində rabitə və yüksək texnologiyalar naziri, akademik Əli Abbasovun böyük əməyi olduğu danılmazdır.

Bildiyimiz kimi, bu sahənin müasir dünya standartları səviyyəsinə çatdırılması üçün nazir Əli Abbasovun rəhbərliyi ilə bütün strukturlarda olduğu kimi, “Azərpoçt” MMC-də də müəyyən işlər həyata keçirilir. Belə ki, bu gün “Azərpoçt”un tabeliyində olan bütün poçt şöbələri və agentlikləri müasir texniki məişət və avadanlıqlar ilə, o cümlədən sürətli daxili və digər şəbəkələrlə təchiz olunmuşdur. Bu gün eyni zamanda əhaliyə yüksək və keyfiyyətli poçt, maliyyə xidmətlərinin göstərilməsi üçün müxtəlif əmr, tapşırıq, proqnozlar verməklə yanaşı, işçilərin bilik səviyyəsinin daha da artırılması məqsədilə “Azərpoçt” MMC-nin aparatında və regionlarda yüksək texnologiyalardan istifadə etməklə təlim və tədris proqramları həyata keçirilir. Sevindirici haldır ki, bu təlimləri “Azərpoçt” MMC-nin hazırladığı təlimçilər həyata keçirir. Son illər görülən məqsədyönlü işlərin nəticəsidir ki, “Azərpoçt” MMC beynəlxalq aləmdə yüksək nailiyyətlərə, uğurlara imza atıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan poçtu dünyada liderdir.



Bu gün çalışdığımız 5 saylı poçt filialı da yürüdülən siyasətin, verilən proqnoz tapşırıqların, əmr və göstərişlərin yerlərdə tətbiqi, əhaliyə yüksək, keyfiyyətli poçt xidmətinin göstərilməsi üçün bütün işçilər əllərindən gələni edir. Peşə bayramını böyük ruh yüksəkliyi ilə qarşılayan kollektiv ötən 9 ayda yüksək göstəricilər əldə etmişdir. Xidməti ərazimiz Bakı şəhərinin təxminən 52 faizini təşkil edir. Filialın tabeliyində 18 poçt şöbəsi, 5 agentlik fəaliyyətdədir. Ötən dövrdə 21, 81, 23 və s. şöbələrdə cari təmir işləri aparılmışdır. 9 ayda proqnoza 103,6 faiz əməl olunmuşdur. Ayrı-ayrı növlər üzrə göstəricilər yüksəkdir. Pul köçürmələri—123 faiz, aylıq abunə—122 faiz, işıq pullarının yığımı—103,6 faiz, qaz pullarının yığımı—122,2 faiz, su haqlarının yığımı—137,14 faiz, vergi ödəmələri —114,84 faiz, sürətli pul köçürmələri “Zolotoya Korona”, “Western Union” üzrə proqnoz 165 faiz təşkil etmişdir.



Filial kollektivi hər zaman olduğu kimi, bu il də 9 oktyabr ÜPİ-nin yaranmasının 141 illik yubileyini təntənəli qeyd etmək əzmindədir. “Azərpoçt” MMC rəhbərliyinin tapşırıq və tövsiyələrinə uyğun olaraq xidməti ərazimizdə və şöbələrimizdə bayram ab-havasının yaradılması, eyni zamanda əhaliyə yüksək poçt xidməti göstərilməsi üçün müxtəlif layihələr, tədbirlər və yarışlar keçirilir. Hər il olduğu kimi, bu ildə rəhbərlik bu tədbirlərdə qaliblərin mükafatlandırılmasını həyata keçirəcək. Bizə göstərilən diqqət və qayğıya görə “Azərpoçt” MMC rəhbərliyinə öz minnətdarlığımızı bildiririk.

Bu il xalqımız və bizim üçün əlamətdar hadisələrlə yaddaqalan olmuşdur ki, onlardan biri də qarşıdan gələn parlament seçkiləridir. Ölkəmiz üçün böyük əhəmiyyət kəsb edən bu seçkilərdə cəmiyyətin bir üzvü kimi aktiv olmaq hər bir azərbaycanlının borcudur. Biz rabitəçilər də ictimai-siyasi tədbirlərdə həmişə fəal iştirak edirik. Qeyd edim ki, YAP-ın üzvləri olaraq qarşıdan gələn seçkilərdə partiyamızın irəli sürdüyü namizədlərin namizədliyinin qeydə alınması üçün imza toplama kampaniyasında fəal iştirak etdik. Hazırda namizədlərin hamısı DSK-da rəsmən qeydə alınıb.

Qazandığımız uğurlar bizi arxayınlaşdırmır. 9 oktyabr Ümumdünya Poçt Gününü yüksək əhval-ruhiyyə ilə qarşılayan kollektivimiz bundan sonra da səylə çalışacaq, 2015-ci ili uğurla başa vuracaqdır.

**Əlizamin MƏMMƏDOV,**
**“Azərpoçt” MMC,**
**5 saylı poçt filialının rəis müavini, Yeni Azərbaycan Partiyasının fəalı.**